**Son illər Ağcabədidən Bakıya həmişə böyük təəssüratla qayıtmışam. Bu dəfə də elə oldu. Respublikamızın bu dilbər guşəsində eşitdiklərim və gördüklərim məni çox fərəhləndirdi. Mənim üçün həm də ona görə xoşdur ki, bütün bu uğurlarda dostum və qardaşım Rza müəllimin xüsusi zəhmət payı vardır.**

# Ağcabədidə eşitdiklərimiz və gördüklərimiz



Bəli, qətiyyətlə söyləməliyəm ki, Ağcabədi Rayon Mədəniyyət və Turizm Şöbəsinin nailiyyətləri məhz bu gözəl ziyalının, bacarıqlı təşkilatçının, təcrübəli mədəniyyət xadiminin, qayğıkeş şöbə müdirinin, xeyirxah insanın adı ilə bağlıdır.

...Rza Quliyevin xoşbəxt anlarını da görmüşəm, hüznlü məqamlarını da. Uğurlardan sevindiyi dəqiqələri də izləmişəm, nahaqdan incidilərək üzüldüyü günləri də.

Amma nə yaxşı ki, o həmin dövrlərdə ruhdan düşmədi, zülmət gecələrin yerini gec-tez alagözlü gündüzlərin alacağına - həqiqətin yerini tutacağına, ədalətin qalib gələcəyinə bütün varlığı ilə inandı.

Əlbəttə, bütün bunlar ona heç də asan başa gəlmədi. Nə qədər əsəbiləşməli, ürək ağrısı keçirməli oldu.

İndi...

İndi incidən yoxdur. Yeri-yurdu da bəlli deyil. İncidilən isə iş başında, vəzifə kürsüsündədir. Mədəniyyətə xüsusi qayğısı ilə seçilən rayon icra hakimiyyətinin başçısı Şahin Məmmədovun diqqəti sayəsində gerçəkləşdirdiyi layihələrin, həyata keçirdiyi tədbirlərin çeşid və keyfiyyətini daha da yaxşılaşdırıb.

Təqdirəlayiq haldır ki, bu nəcib işə şöbənin özündə birləşdirdiyi bütün mədəni-maarif müəssisələri məsuliyyətlə yanaşmışdır. Hər il olduğu kimi, yenə də tarixi-əlamətdar günlərin, yubiley mərasimlərinin, hərbi-vətənpərvərlik tərbiyəsinin yüksək səviyyədə təşkili diqqət mərkəzində olmuşdur.

Abbasqulu ağa Bakıxanovun 220, Məmməd Əmin Rəsulzadənin 130, İlyas Əfəndiyevin 100 illiyi, N saylı hərbi hissədə zabit və əsgərlər qarşısında maraqlı çıxışlar, hazırlanan ədəbi-bədii gecələr, sərgilər və s. bu qəbildəndir.

Respublika əhəmiyyətli müsabiqələrdə fərqlənmək də şöbənin uğurları sırasındadır. Buna nümunə kimi Ü.Hacıbəyli adına Qarabağ Muğam Mərkəzinin şagirdləri Arzu Mahmudova, Ceyhunə Şirəliyeva, Nərmin Sultanova, Zəhra Məmmədova və Hacıbədəlli uşaq musiqi məktəbinin şagirdi Elvin Nağıyevin nailiyyətlərini göstərmək olar.

Təbii ki, bütün bunlar bölgədə istedadlı uşaqların axtarışı və onların gələcək inkişafı qayğısına qalınmasının təzahürüdür. Ağcabədi şəhər uşaq musiqi məktəbinin fəaliyyəti ilə maraqlanarkən buna bir daha əmin olduq.



Bu musiqi ocağına Rza müəllimin təşəbbüsü ilə getdik. Yol boyu icra başçısı Şahin Məmmədovdan, onun mədəniyyətə xüsusi qayğısından, iki mərtəbəli, 54 otaqdan ibarət yeni binanın məktəbin ixtiyarına verməsindən sonsuz razılıq və minnətdarlıqla danışdı.

Bununla bağlı tədris müəssisəsinin direktoru Asif Xəlilovun sevincini də bölüşdük. Öyrəndik ki, məktəb 1988-ci ildən fəaliyyət göstərir. Burada 307 nəfər şagird oxuyur. Onların 6 ixtisas üzrə təlim-tərbiyəsi ilə 89 nəfər müəllim məşğul olur.

Musiqi alətləri ilə təminat qənaətbəxşdir. Məktəbə telefon xətti çəkilib, kompüter ayrılıb, internet şəbəkəsindən səmərəli istifadə edilir. Bir qayda olaraq yarışmalara fəal qoşulan məktəbdə indi də Bülbül adına Milli Musiqi Alətləri İfaçılarının və Xanəndələrin II Respublika və "İstedadlar sorağında" rayon müsabiqələrinə hazırlıq tədbirləri görülür.

**Kollektiv əmindir ki, Nigar İbrahimova, Lalə Abbasova, Rəşidə Hacıyeva, Şəmşir Sultanov, Sahib Quliyev, Aytən Mustafayeva, Sənubər Qasımova, Gülgəz Əhmədova, Könül Ağayeva, Gülmirə Fərzəliyeva, Yeganə Novruzova kimi qabaqcıl müəllimlərin işgüzarlığı sayəsində yeni-yeni uğurlara imza atılacaqdır...**

**Y.ARAPLI**

